Qədiməli ƏHMƏD



## ÖZ MƏSAFƏNDƏ

Susursan yenə də öz məsafəndə,
susan gözlərinin qucağı bomboş.
İçində qurduğun xəyal evidi,
yanıb külə dönən ocağı bomboş.

Bitib uzaq düşən yollar,küçələr,
bitib addımları gerçəklərin də.
Qarışan saçların şırımlarında
qar bitib ömrünün çiçək yerində.

Gəlməz gözlədiyin günlər,saatlar,
ötən boş zamana nə ad qoyasan..?
Xoşbəxtlik yalançı xəyal olsa da,
bir az yaşayasan,bir az doyasan.

Yenə də bir səs var,onu da dinlə,
uzaqlar "dəmindi",yaxınlar qəmin...
Yenə bir ağrı var,durar səninlə,
doğmandı,yadındı,əmin ol,əmin...

## SARALIB HƏYATIN GÜL LƏPİRLƏRİ

Yağış layla çalır yorğun gecəyə,
sükut mürgüləyir pəncərənizdə.
Ayrılıq küləyi əsir küçədə,
həsrət yuva qurur solğun bənizdə.

Unudub gedirsən,-demə yolları,
nə bax qəmə köklən,nə azca sızla.
Mənim ömrüm keçib illərin üstə,
illər sevincimi ayaqlamaqla.

Saralıb həyatın gül ləpirləri,
tökülüb sevdanın ayaqlarına.
Nə mən o oğlanam,nə sən o qızsan,
eşqin məlhəmilə yaram sarına.

Mənim ömrüm keçib illərin üstə,
sənin dönməyinə daha güman yox.
Xəyalım dəyişib yolun səmtini,
gedirəm,durmağa vaxt dar,zaman yox...

## ÇİYƏLƏK ƏTRİN

Nə yaxşı,qayıtdın ilkin çağına,
Saçın da əvvəlki,baxışların da.
Bir ovuc xəyalı asıb
gözünün
yenə isladırsan yağışlarında.

Ömrün yazı da var,payızı da var,
Vaxta hesablanıb gedirik,nə qəm...
İndi xəfif-xəfif yellər oynayan
Pırpız saçlarını çoxdan sevmişəm.

Daha yadırğamaz güzgülər səni,
Oxşayar saçını barmaqlarım da.
Sənin ətrin gələr,-çiyələk ətrin
Hər gecə odama barmaqlarımda.

## GÖZLƏRİNLƏ QOVUŞANDA

Ulduzları yığ gözlərinə,gözəllikdi...
Səhərsə gələcək,
mütləq gələcək...
Ulduzlar sevilər gözlərinə görə,
Ay əzizlənər
baxışlarına görə.
Baxacaqsan,
susacaqsan
gözlərinlə ulduzlar qovuşanda...

ədalət 2019.- 2-3 avqust.- S.12.